Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir

# Allahın İbrahimə vədi



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Byron Unger; Lazarus

Uyğunlaşdıran: M. Maillot; Tammy S.

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2014 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.


Daşqından uzun illər sonra yer üzərindəki insanlar plan qurdular.


“Gəlin özümüzə bir şəhər və başı göylərə çatan bir qüllə tikək,” onlar dedilər. “Gəlin həmişə birlikdə yaşayaq”. Hamı eyni dildə danışırdı.

Allah istəyirdi ki, insanlar Onun yaratdığı dünyanın hər tərəfində yaşasınlar. O, xüsusi bir şey etdi. Qəflətən bir insan qrupu fərqli dildə danışmağa başladı.

Allah onlara yeni dil verdi.



Eyni dildə danışanlar birlikdə kənara çəkildilər.  Ola bilsin ki, insanlar dillərini başa düşmədikləri digər insanlardan qorxdular.



Bu yolla Allah insanların müxtəlif ölkələrə yayılmalarına səbəb oldu.  Onların tərk etdikləri şəhərin adı Babil idi ki, bu da qarışdırmaq deməkdir.



İllər keçəndən sonra Xaldeylilərin Ur şəhərində Allah İbrama dedi: “Sənə göstərəcəyim ölkəyə get”.



İbram itaət etdi.  Allah onu Kənan torpağına apardı.  Onun arvadı Saray və qardaşı oğlu Lut da onunla birlikdə getdilər.



Kənan torpağında İbram və Lut zəngin oldular.  Onların çoxlu sayda mal-qaraları var idi.  Bu qədər heyvan üçün onların kifayət qədər torpaqları yox idi.



İbramın sürülərinin çobanları ilə Lutun sürülərinin çobanları arasında mübahisə düşdü. İbram dedi: “Qoy mənim çobanlarımla sənin çobanların arasında mübahisə olmasın”. “Biz ayrılacağıq. Lut, sən istədiyin torpağı özünə seç”.



Lut şəhər və kəndlərlə əhatə olunmuş böyük yaşıl düzənliyi seçdi.  Amma bu şəhərlər çox əxlaqsız yerlər idi.



Lut gedəndən sonra Allah yenidən İbramla danışdı: “Bütün Kənan torpağını əbədiyyən sənə və sənin nəslinə verirəm”.



İbram və Sarayın övladları yox idi.  Allah Öz böyük vədini necə yerinə yetirə bilərdi?





Allahdan olan üç adam İbram
və Sarayın yanına gəldi.



Onlar dedilər: “Tezliklə sənin oğlun olacaq”.  Saray güldü.
O, Allahın müjdəsinə inanmadı.  Onun doxsan yaşı var idi.
Allah dedi ki, İbram indi İbrahim (“çoxlarının atası”),
Saray isə Sara (“mələkə”) adlanacaq.


Allah həmçinin İbrahimə iki əxlaqsız şəhərlər olan Sodom və Homorranı dağıdacağını da dedi.  İbrahimin qardaşı oğlu Lut öz ailəsi ilə Sodomda yaşayırdı.

Allahın xəbərdarlığı gələndə Lut inandı, amma onun qızlarının ərləri Sodomu tərk etməkdən imtina etdilər. Necə də faciəlidir! Onlar Allahın Sözünə inanmadılar.



Yalnız Lut və onun iki qızı təhlükəsiz yerə getdilər. Göydən əxlaqsız şəhərlərin üzərinə odlu kükürd yağdı.



Təəssüf ki, Lutun arvadı Allahın xəbərdarlığına itaətsizlik etdi və qaçarkən geriyə baxdı.  O, duz sütununa çevrildi.



Allah İbrahim və Saraya olan əhdinə sadiq qaldı. Allahın dediyi kimi, yaşlı vaxtlarında onların övladı oldu. İshaq doğulanda onlar necə də sevindilər!



Bəlkə İbrahim də Allahın ona və onun nəslinə əbədiyyən Kənan torpaqlarını verəcəyi vədi haqqında fikirləşdi.



Allah o vədinə
də sadiq qalacaq.
Allah Öz vədlərinə
həmişə sadiqdir.



# Allahın İbrahimə vədi

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Yaradılış 11-21

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**